**Azərbaycanla bağlı proqnozlar nikbindir**

«Moody's Investors Service» agentliyinin «Banking System Outlook» («Bank sisteminin perspektivləri») adlı son hesabatında Azərbaycanın bank sistemi proqnozunun stabil qaldığı bildirilir. Bank sisteminin perspektivlərinin aparıcı amilləri isə əlverişli əməliyyat mühiti, kapitallaşmanın aşağı səviyyədə və stabil qalması ilə yanaşı, aktivlərin keyfiyyətində yaxşılaşma, likvidlik buferinin yetərincə olması və mənfəətliliyin artımında nisbi irəliləyişlər hesab olunur. Agentliyin hesabatında bildirir ki, qarşıdakı 12-18 ay ərzində Azərbaycan makroiqtisadiyyatına müsbət təsir göstərən amillər bank sektorunun proqnozunun sabit qalmasına imkan verəcəkdir.

Bundan əlavə, təşkilatın hesablamalarına görə, 2012-2013-cü illərdə Azərbaycanın iqtisadiyyatında nəzərəçarpacaq artım müşahidə olunacaq. Neft ixracından gələn gəlirlər və dövlət tərəfindən ayrılan vəsaitlər sayəsində qeyri-neft sektorunun inkişafı üçün müvafiq əlverişli şərait yaranacaq və ölkədəki kreditləşmə şərtləri yaxşılaşacaq. Azərbaycanda bank sektoruna müdaxilə səviyyəsi aşağı olduğu üçün bankların uzunmüddətli artıma nail olmaq baxımından da yaxşı imkanları vardır.

Hesabatda deyilir ki, proqnoz edilən müddət ərzində bankların aktivlərinin keyfiyyəti, cüzi də olsa, yaxşılaşacaqdır. Eyni zamanda, Azərbaycan banklarının əksəriyyətində kapitallaşma səviyyəsi əvvəlki səviyyədə qalacaqdır. Problemli kreditlərin səviyyəsi - ümidsiz kreditlər (90 gün və daha çox) və təkrar maliyyələşdirilmiş kreditlər 2012-ci ilin sonunadək ümumi kreditlərin məcmu sayının 13%-nə qədər azalacaqdır. Bu göstərici 2011-ci ildə 16% qeydə alınmışdı.

Qeyd olunan müsbət dəyişiklik isə əlverişli iqtisadi mühitin olması ilə əlaqələndirilir. Hesabatda deyilir ki, əksər Azərbaycan bankları likvid aktivlərin yetərlilik göstəricisinə riayət edirlər. «Moody's Investors Service» agentliyinin qənaətinə görə, belə banklar nisbi stabil maliyyə ehtiyatlarına malikdirlər (depozit ehtiyatlar üstünlük təşkil edir) və onların əksəriyyəti 2011-ci ildə öz mənfəət göstəricilərini yaxşılaşdırmışlar.

R.SADIQOV